# "Qərbin Cənubi Qafqazla bağlı planları iflasa məhkumdur"

**"Bəzi Qərb dövlətlərinin ikili standartlara əsaslanan, qərəzli siyasətinin yaratdığı problemləri sadalamaqla bitməz. Azərbaycan dövləti Qərbin qərəzli siyasəti ilə çox üzləşib. İstər keçmiş işğal illərində, istərsə də postmüharibə dövründə bəzi Qərb dövlətlərinin həyata keçirdiyi siyasət birmənalı şəkildə regionumuzda təhlükəsizliyin təmin olunmasına təhdid yaradır".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar Rəhimzadə deyib. Deputat bildirib ki, qərəzli, beynəlxalq hüquqa zidd siyasəti ilə dünyada özünü nüfuzdan salan Fransanın regionumuzda Azərbaycanın yaratdığı yeni reallığı qəbul etmək əvəzinə Ermənistanı silahlandırması yeni münaqişə ocağı yaratmağa hesablanıb. Bu siyasət, əslində, Qərbin Cənubi Qafqazla bağlı planlarını növbəti dəfə açıq şəkildə ortaya qoyur. Reallıq budur ki, Qərb Ermənistanı silahlandırmaqla təkcə onu yeni müharibəyə hazırlamır, digər yandan, Cənubi Qafqazla bağlı planlarını mərhələli şəkildə həyata keçirməyə cəhdlər edir. "Qərb regionda öz maraqlarını həyata keçirmək, bölgəni təsir dairəsində saxlamaq üçün Ermənistandan istifadə edir. Bu siyasət Ermənistan üçün yaxşı heç nə vəd etmir. Casus funksiyası yerinə yetirən Avropa İttifaqının Ermənistandakı missiyası da bu planın tərkib hissəsidir. Bayden-Blinken administrasiyası dövründə həm dünyada, həm də Cənubi Qafqazla bağlı dağıdıcı, riyakar siyasətin şahidi olduq. Qərbin otuz il ərzində qurduğu bütün planlar Azərbaycanın qazandığı tarixi Zəfər nəticəsində darmadağın oldu", - deyə deputat əlavə edib.

V.Rəhimzadə qeyd edib ki, Qərbin regionla bağlı növbəti planları da iflasa məhkumdur. Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışı zamanı da bildirdi ki, Azərbaycan bir çox ölkələrlə strateji tərəfdaşlıq sazişləri imzalayıb. Bütün bunlar coğrafi, siyasi, iqtisadi və nəqliyyat sahələrində Mərkəzi Asiya regionu ilə və Avropa arasında ümumi yanaşmaları formalaşdırmağa imkan yaradıb. Regionda uzunmüddətli əməkdaşlığa gəldikdə, əgər xəritəyə baxsaq, Azərbaycanın burada əsas yer tutduğunu görə bilərik. Bəziləri Azərbaycanı nəinki bu prosesdən, o cümlədən, ümumiyyətlə, prosesdən ayırmaq və Cənubi Qafqazda ayırıcı xətləri çəkmək cəhdləri göstərir. Lakin bu, birmənalı olaraq uğursuz olacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 10 aprel (№69).- S.7.